

Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 22 aprel 2021-ci il, cümə axşamı / № 070 (5926). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycanda həyata keçirilən siyasət respublikamızın müxtəlif sahələrdə uğurlu inkişafını təmin edir



## Prezident İlham Əliyev: Bütün ölkə üzrə böyük işlər görülmüşdür



## Prezidentin iş günü

Prezident İlham Əliyev Hacıqabul rayonunun Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Hacıqabul şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

## Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır

Hər bir xalqın tarixində əvəzolunmaz rol oynayan, öz xalqı üçün xilaskarlıq missiyası həyata keçirən tarixi şəxsiyyətlər var. Azərbaycan xalqının tarixində də məhz belə bir şəxsiyyət Ümummilli Liderimiz Heydər Əliyevdir. Heydər Əliyev bütün həyatını Öz doğma xalqının inkişaf və tərəqqisinə həsr etmiş, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş şəxsiyyətdir. Əminliklə söyləmək olar ki, müasir Azərbaycanın keçdiyi yol bilavasitə Ulu Öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Hələ sovet dövründə - 1969-cu ilin iyul ayında Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev keçmiş ittifaq miqyasında geridə qalan respublikamızı qısa müddət ərzində öncül yerə çıxardı, Azərbaycan aqrar respublikadan, sənaye-aqrar respublikaya çevrildi. Ulu Öndərimizin həmin dövrdə misilsiz xidmətləri Azərbaycan xalqının rifah halını da əhəmiyyətli dərəcədə yüksəltdi. Mən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ərəfəsində...

Bax səh. 3

## "Qorunma tədbirlərinin davam etdirilməsi ilə yanaşı, vaksinasiyada aktiv iştirak da vacibdir"



Bu gün bəşəriyyəti cənginə alan koronavirus pandemiyası çox təhlükəli bəlaya çevrilib. Dövlətimiz pandemiyaya qarşı mübarizədə olduqca önəmli tədbirlər həyata keçirir. Əhalinin peyvənd olunması prosesi...

Bax səh. 4




## AZƏRBAYCANDA KORONAVİRUSA 2075 YENİ YOLUXMA FAKTI QEYDƏ ALINIB

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 2480 nəfər müalicə olunaraq sağalıb, 2075 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 32 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 305 min 933 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 269 min 965 nəfər müalicə olunaraq sağalıb, 4235 nəfər vəfat edib. Aktiv xəstə sayı 31733 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 141 min 335 test aparılıb. Bugünkü test sayı isə 12679-dur.

## XƏTAİ ƏLƏSGƏR: AŞIQ ƏLƏSGƏR İRSİNİN ARAŞDIRILMASI VƏ TANIDILMASI İLƏ BAĞLI GÖRÜLƏN BÜTÜN İŞLƏRƏ DƏSTƏK OLMAĞA ÇALIŞACAĞIQ

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 fevral 2021-ci il tarixdə "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, 2021-ci ildə Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi Aşıqlar Birliyinin təklifləri nəzərə alınmaqla, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Təhsil Nazirliyinə tapşırılıb. Qeyd edək ki, Aşıq Ələsgərin 200 illiyinin qeyd edilməsi sənətkarın yaradıcılığı ilə məşğul olan tədqiqatçıların, ələsgərşünasların qarşısında yeni imkanlar açır. Məsələ ilə bağlı qəzetimizə açıqlama verən Aşıq Ələsgərin nəticəsi, "Dədə Ələsgər Ocağı" İctimai Birliyi Təşkilat Komitəsinin sədri Xətai İslam oğlu Ələsgər sözügedən Sərəncamın mühüm əhəmiyyətə malik olduğunu deyib: "Cənab Prezidentin imzaladığı bu Sərəncam ələsgərsevərlərin, aşıq sənətinin vurğunu olan insanların ürəyincə olub. Bu addım aşıq sənətinin gələcək inkişafı üçün də mühüm töhfədir. Məhz buna görə Prezident İlham Əliyevə bir daha minnətdarlığımızı çatdırırıq". Yubiley ili çərçivəsində artıq bir sıra tədbirlərin keçirildiyini xatırladan...

Bax səh. 4



## MİLLİ MƏCLİSİN SƏDRİ İNDONEZİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ İLƏ GÖRÜŞÜB

Aprelin 21-də Milli Məclisin sədri Sahibə Qafarova İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidlə görüşüb. Qonağı salamlayan Sahibə Qafarova ona Azərbaycanda diplomatik fəaliyyətində uğurlar arzulayıb. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi AZƏRTAC-a bildiriblər ki, Milli Məclis sədri ölkələrimiz arasında dostluq münasibətlərini qeyd edərək, xüsusilə siyasi sahədə möhkəm əlaqələrin olduğunu, Azərbaycan və İndoneziyanın Birləşmiş Millətlər Təşkilatı...

Bax səh. 2

## Narkotik asılılığı problemi: nəyi bilməli, necə davranmalı?

Narkomaniya "cəmiyyətin bəlası" adlandırılan ciddi sosial problemdir. Təəssüf ki, bu bəlanın qurbanları bütün dünyada hər keçən gün artır. Mütəxəssislərin vurğuladıqları kimi, narkomaniya birbaşa intihar halı olmasa da, onun insanları tədricən məhv etdiyi, ölümə sürüklədiyi danılmazdır. Psixoloq Zərinə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, ümumiyyətlə, gənclər və uşaqlar arasında asılılıqlara meyillilik çoxdur: "Asılılıq deyəndə internet, narkotik, yaxud alkoqol içki asılılıqlarını və digərlərini nəzərdə tuturam. Ümumiyyətlə, deyə bilərəm ki, ailədaxili sevgi, valideyn-övlad münasibətləri güclü olan ailələrdə böyüyən uşaqlar adətən belə asılılıqlara meyil etmirlər. Asılılıqların yaranması bir çox hallarda ailədaxili bağlarda olan boşluqlardan irəli gəlir". Zərinə Əliyeva onu da bildirib ki, narkotikin aludəçisi olanlarla aparılan sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər...

Bax səh. 4

## YAP Sədrinin müavini İCAPP-ın tədbirində iştirak edib

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov aprelin 21-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (İCAPP) Daimi Komitəsinin 35-ci iclasında iştirak edib. AZƏRTAC xəbər verir ki, videokonfrans formatında keçirilən iclasda açılış nitqi ilə çıxış edən Koreya Respublikasının xarici işlər naziri, İCAPP Daimi Komitəsinin həmsədri Çunq Eui-yonq İCAPP-ın fəaliyyətinə göstərdiyi fəal dəstəyə görə Yeni Azərbaycan Partiyasına xüsusi təşəkkürünü bildirib. Tədbirdə çıxış edən YAP Sədrinin müavini Əli Əhmədov ötən il 44 günlük müharibə nəticəsində Azərbaycanın öz ərazilərini işğaldan azad etdiyini, bölgədə sülh və əməkdaşlıq üçün yeni imkanların...



Bax səh. 2

## Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələrinin onlayn təqdimatı olub

Aprelin 21-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələrinin onlayn təqdimat mərasimi keçirilib. Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş tədbirdə Təhsil Nazirliyindən, Milli Məclisdən, Azərbaycan Memarlar İttifaqından, ali təhsil müəssisələrindən qonaqlar iştirak ediblər. AZƏRTAC xəbər verir ki, universitetin rektoru, professor Gülçöhrə Məmmədova qonaqlara layihə barədə ətraflı məlumat verib. Rektor qeyd edib ki, Memarlıq fakültəsində təhsil alan tələbələrin təşəbbüsü ilə ərsəyə gələn Şuşa şəhərinin şəhərsalma inkişafı və tarixi memarlıq irsinin bərpası layihəsi üzrə işlər bir il əvvəl başlayıb. "Tələbələrimiz və müəllimlərimiz layihə üzərində işə başlayanda Şuşa...



Bax səh. 3

# Azərbaycanda həyata keçirilən siyasət respublikamızın müxtəlif sahələrdə uğurlu inkişafını təmin edir

*Son 17 ildə Azərbaycan dünyaya bir sıra spesifik cəhətləri ilə fərqlənən nümunəvi inkişaf modeli təqdim edib. Respublikamızda praqmatik siyasətçi olan Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət, ilk növbədə, nəticəyə hesablanması ilə diqqəti cəlb edir. Əvvəlcə ölkənin potensialı və yeni çağırışlar nəzərə alınmaqla prioritetlər müəyyənləşdirilir, qarşıya hədəflər qoyulur və məqsədə çatmaq üçün lazımi tədbirlər görülür. Dövlət başçısının siyasi iradəsi ilə reallaşdırılan belə məqsədyönlü siyasət respublikanın müxtəlif sahələrdə uğurlu inkişafını təmin edir. Bunu ölkənin bütün bölgələrinin, o cümlədən də Prezident İlham Əliyevin bu günlərdə səfərdə olduğu Hacıqabul rayonunun timsalında aydın şəkildə izləmək mümkündür. Dövlətimizin başçısı aprelin 20-də Azərbaycan Televiziyasına verdiyi müsahibədə ölkəmizin uğurlu inkişafından, buna adekvat olaraq insanların həyat şəraitinin yaxşılaşmasından məmnunluğunu bildirib.* ***"Təəssüratlar çox müsbətdir. Hacıqabul rayonunda həyata keçirdiyimiz işlərin nəticələrini görürük. Vaxtilə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Bu proqram çərçivəsində, o cümlədən Hacıqabul rayonunda böyük işlər görülmüşdür. Bütün ölkə üzrə böyük işlər görülmüşdür".***

## *Prezident İlham Əliyev: Bütün ölkə üzrə böyük işlər görülmüşdür*



### TƏTBİQ OLUNAN YENİ YANAŞMALAR AZƏRBAYCANIN MÜASİR SİMASINI FORMALAŞDIRIR

Azərbaycan Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq müasirləşməni, həyatın ayrı-ayrı sahələrində yeniləşməyə nail olunmasını, reallaşdırılan bütün layihələrdə ən yüksək standartların tətbiq edilməsini özünün əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Bu baxımdan son 17 ildə respublikamızın əksər bölgələrində, həmçnin Hacıqabul rayonunda böyük həcmlərdə dövlət investisiya qoyuluşu hesabına reallaşdırılan müasir infrastruktur quruculuğu, xüsusilə diqqət çəkir. Deyə bilərik ki, bu gün respublikamız infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri sırasında yer alır. Bəhs olunan müsahibədə Prezident İlham Əliyevin diqqət çəkdiyi regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları çərçivəsində reallaşdırılan infrastruktur layihələri müxtəlif istiqamətlərdə həyata keçirilib. Dövlət başçımızın qarşıya qoyduğu əsas vəzifələrdən biri ondan ibarətdir ki, Azərbaycanın hər bir yaşayış məntəqəsi müasir yollarla təmin olunmalıdır. Respublikamızda hər il təxminən 1000 kilometr yol yenidən qurulur. Son 17 ildə ölkə üzrə uzunluğu 17 min kilometrdən çox olan yollarda təmir-tikinti işləri aparılıb, 470 körpü və tunel istifadəyə verilib. Reallaşdırılan layihələr nəticəsində Azərbaycan müasir yolnəqliyyat infrastrukturuna malik ölkəyə çevrilib.

Son 17 ildə dövlət başçımızın siyasi iradəsinə uyğun olaraq enerji sisteminin dayanıqlılığının artırılmasına böyük həcmlərdə investisiyalar yönəldilib. Bəhs olunan dövürdə respublikamızda yeni generasiya güclərinin yaradılması ilə bağlı statistika kifayət qədər zəngindir. Bütövlükdə, son 17 ildə ölkə üzrə güc artımının saldosu 1518,6 MVt təşkil edib.

İndiyədək regional inkişaf proqramlarının icrası çərçivəsində bölgələrdə su layihələrinin icrası, o cümlədən əhalinin su təchizatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb. Respublikamızda Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə kimi su anbarlarının yaradılması ölkəmizin su təhlükəsizliyinin etibarlı şəkildə təmin olunması baxımından strateji önəm daşıyır.

Daxili istehlakçıların "mavi yanacağa" olan tələbatının dolğun şəkildə ödənilməsi Azərbaycanın məqsədyönlü enerji siyasətinin prioritetini təşkil edir. İndiyədək reallaşdırılan layihələr sayəsində respublikamızda 2020-ci ildə qazlaşdırmanın səviyyəsi 96 faizə yüksəlib

*"Aqroparkların üstünlüyü ondan ibarətdir ki, burada daha bol məhsul yetişdirilir və məhsuldarlıq da daha yüksəkdir. Bu, təbiidir, çünki burada ən müasir aqrotexniki tədbirlər tətbiq olunur"*

ki, bu da böyük nailiyyətdir.

Ölkəmizdə müasir infrastruktur quruculuğu hazırda da intensiv şəkildə davam etdirilir. Yeri gəlmişkən, Prezident İlham Əliyev Hacıqabul rayonuna səfəri çərçivəsində yeni infrastruktur obyektlərinin açılış mərasimlərinə qatılıb. O cümlədən Hacıqabul-Muğan avtomobil yolu yenidənqurmadan sonra dövlət başçımızın iştirakı ilə istifadəyə verilib. Uzunluğu 11,5 kilometr olan bu yolun yenidən qurulması 32 min nəfərin yaşadığı 2 yaşayış məntəqəsi arasında əlaqəni gücləndirəcək.

Hacıqabulda 110/35/10 kilovoltluq "Qarasu", bundan əvvəl "Hövsan" və "Maştağa" yarımstansiyalarının Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilməsi ölkədə yeni enerji güclərinin yaradılmasının, enerji təchizatı infrastrukturunun müasir tələblərə uyğun yenidən qurulmasının ardıcıl şəkildə davam etdirildiyini bir daha təsdiqləyir. Hacıqabulda "Qarasu" yarımstansiyanın istismara verilməsi ilə ümumilikdə 10 mindən çox əhalinin elektrik enerjisi təchizatı daha da yaxşılaşdırılıb.

Bütövlükdə, respublikamızda yalnız infrastruktur quruculuğunda deyil, həyatın bütün sahələrində, həmçinin kənd təsərrüfatında da tətbiq olunan yeni yanaşmalar ölkəmizin müasir simasını formalaşdırır. Bu baxımdan son illərdə ölkə üzrə iri fermer təsərrüfatlarının, aqroparkların yaradılması təqdirəlayiqdir. Müasir becərmə və suvarma metodlarının tətbiqi sayəsində aqroparklarda məhsuldarlıq yüksək olur ki, bu da daxili istehlakın yerli istehsal hesabına təmin olunması, həmçinin ölkənin ixrac imkanlarının artırılması baxımından çox önəmlidir. Hacıqabulda Prezident İlham Əliyevin iştirakı ilə açılışı keçirilən "Agro Dairy" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqroparkında və "Azərsun Şamaxı Aqropark"ında istehsal, emal və logistika imkanlarının eyni məkanda cəmləşməsi belə müəssisələrin səmərəliliyini əyani şəkildə təsdiqləyir. Respublikamızda təxminən 50 aqroparkın yaradılması nəzərdə tutulub. Ölkəmizdə aqroparkların yaradılmasının önəminə diqqət çəkən Prezident İlham Əliyev **"Aqroparkların üstünlüyü ondan ibarətdir ki, burada daha bol məhsul yetişdirilir və məhsuldarlıq da daha yüksəkdir. Bu, təbiidir, çünki burada ən müasir aqrotexniki tədbirlər tətbiq olunur",** - deyə vurğulayıb.

Ümumiyyətlə, respublikamızda aqrar sektorda daxili istehsalın genişləndirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə görülən tədbirlərin əhatə dairəsi kifayət qədər genişdir. Son illərdə ölkəmizdə fermerlərə yeni dəstək mexanizmləri işə salınıb, həmçinin gəlir imkanları və əmək tutumu yüksək olan sahələrin inkişaf etdirilməsi güclü şəkildə təşviq olunur. Pambıqçılıq da belə sahələrdəndir. Qeyd edək ki, respublikamızda Prezident İlham Əliyevin 13 iyul 2017-ci il tarixdə imzaladığı müvafiq Sərəncamla "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" təsdiqlənib və hazırda bu proqramın icrası yüksək səviyyədə təmin olunur. Görülən tədbirlərin nəticəsidir ki, ötən il respublikamızda 336 min ton pambıq tədarük olunub ki, bu da altı il bundan əvvəlki göstəricini təxminən 10 dəfə üstələyir. Yeri gəlmişkən, Prezident İlham Əliyev Hacıqabul rayonunun Meyniman kəndinin ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanış olub səpinə start verilməsi prosesini izləyib.

*"Artıq avtomobil sənayesi Azərbaycanda inkişaf edir və biz bu sahədə bir neçə ölkə ilə bərabər çalışırıq. Növbəti mərhələdə lokallaşmanı daha da artırmaq gündəlikdə duran məsələlərdən biridir və biz buna da nail olacağıq"*

### ÖLKƏMİZDƏ SƏNAYE XƏRİTƏSİNİN REGIONLARA DOĞRU GENİŞLƏNMƏSİ PROSESİ DAVAM EDİR

Son 17 ildə respublikamızda qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin siyasi iradəsi ilə həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindən birini təşkil edib. Respublikamızda innovativ əsaslı, elm tutumlu sənaye quruculuğuna ciddi önəm verilir. Qeyd edək ki, yeni növ koronavirus pandemiyasının yaratdığı bir sıra çətinliklərlə müşayiət olunan 2020-ci ildə və cari ilin arxada qalan dövründə respublikamızda qeyri-neft sənayesində təxminən 12 faiz artım müşahidə edilib ki, bu da Prezident İlham Əliyevin ardıcıllıqla apardığı sənayeləşmə siyasətinin uğurlu nəticələr verdiyini bir daha təsdiqləyir.

Ölkəmizdə müasir sənaye müəssisələrinin yaradılmasına yerli və xarici investorların cəlb edilməsi baxımından sənaye məhəllələrinin və parklarının yaradılması böyük əhəmiyyət daşıyır. Azərbaycanın ilk, Cənubi Qafqazın ən böyük sənaye parkında - Sumqayıt Kimya Sənaye Parkında artıq qeydiyyata alınmış 24 rezidentdən 15-i istehsal fəaliyyətinə başlayıb. Respublikamızda ilk sənaye məhəlləsi isə Neftçalada Prezident İlham Əliyevin müvafiq Sərəncamı əsasında yaradılıb və 2017-ci il 24 sentyabr tarixində dövlət başçısının iştirakı ilə istifadəyə verilib. Respublikamızda sənaye xəritəsinin regionlara doğru genişlənməsi prosesi davam edir. Hazırda ölkə miqyasında bir neçə sənaye məhəlləsi uğurla fəaliyyət göstərir. Prezident İlham Əliyevin açılışına qatıldığı Hacıqabul Sənaye Məhəlləsində, ümumilikdə, müxtəlif istehsal sahələri üzrə 10 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına 45,44 milyon manat investisiya cəlb olunub. Hacıqabul Sənaye Məhəlləsində də avtomobil istehsalının həyata keçirildiyini yüksək dəyərləndirən Prezident İlham Əliyev vurğulayıb: **"Artıq avtomobil sənayesi Azərbaycanda inkişaf edir və biz bu sahədə bir neçə ölkə ilə bərabər çalışırıq. Növbəti mərhələdə lokallaşmanı daha da artırmaq gündəlikdə duran məsələlərdən biridir və biz buna da nail olacağıq".**

Qeyd edək ki, respublikamızda fəaliyyətdə olan sənaye məhəllələrinə indiyədək 73 milyon manatdan çox sərmayə yatırılıb, 286 iş yeri açılıb. Rezidentlər 96 milyon manatdan çox məhsul satışını həyata keçiriblər.

**Mübariz ABDULLAYEV**

# Milli Məclisin sədri İndoneziyanın ölkəmizdəki səfiri ilə görüşüb



Aprelin 21-də Milli Məclisin sədri Sahibə Qafarova İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidlə görüşüb. Qonağı salamlayan Sahibə Qafarova ona Azərbaycanda diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin sədri ölkələrimiz arasında dostluq münasibətlərini qeyd edərək, xüsusilə siyasi sahədə möhkəm əlaqələrin olduğunu, Azərbaycan və İndoneziyanın Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq etdiyini bildirib. Həmçinin humanitar sahədə də səmərəli əməkdaşlıq əlaqələrinin mövcudluğu vurğulanıb.

İkitərəfli əlaqələrin inkişafında parlamentlərin müsbət rol oynadığını diqqətə çatdıran Sahibə Qafarova deyib ki, iki ölkənin ali qanunverici orqanları arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurlu əməkdaşlıq həyata keçirilir. Bunun göstəricisi olaraq, hər iki ölkənin qanunverici orqanlarında işçi qrupları fəaliyyət göstərir. O, pandemiya başa çatandan sonra tərəflər arasında temasların artacağına inamını ifadə edib.

Ölkəmizin ötən il 44 günlük Vətən müharibəsində qazandığı Qələbə haqqında qonağa məlumat verən sədr Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan torpaqlarını işğaldan azad edərək BMT-nin qətnamələrini özü yerinə yetirib. Qeyd olunub ki, Ermənistan 30 ilə yaxın bir dövrdə işğal altında saxladığı Azərbaycan torpaqlarında böyük dağıntılar, vandalizm aktları törədib, şəhərləri, evləri, kəndləri, tarixi, mədəni və dini abidələri, o cümlədən məscidləri tamamilə dağıdıb. Milli Məclisin sədri Ermənistanın bütün çağırışlara baxmayaraq, növbəti dəfə hərbi cinayət törətdiyini, beynəlxalq humanitar hüququn prinsiplərini kobud şəkildə pozaraq minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina etdiyini də diqqətə çatdırıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir Hildi Hamid Azərbaycanda diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin daha da inkişafı istiqamətində çalışacağını bildirib. O, Azərbaycanın zəngin təbii sərvətlərə malik, böyük mədəni zənginliyə malik gözəl ölkə olduğunu qeyd edib. Hazırda ölkələrimiz arasında münasibətlərin inkişafından razılığını bildirən diplomat vurğulayıb ki, təhsil, ticarət, enerji, turizm və digər sahələrdə əlaqələrimizin daha da inkişafı üçün geniş imkanlar mövcuddur.

Azərbaycanın işğaldan azad olunan ərazilərinə səfər etdiyini söyləyən diplomat orada şahidi olduqları dəhşətləri diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan dövləti həmin ərazilərin bərpası və yenidən qurulması, bölgədə davamlı sülhün təmin olunması istiqamətində böyük işlər görür. Səfir ölkəsinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hər zaman böyük hörmətlə yanaşdığını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# YAP Sədrinin müavini İCAPP-ın tədbirində iştirak edib




Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov aprelin 21-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (İCAPP) Daimi Komitəsinin 35-ci iclasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, videokonfrans formatında keçirilən iclasda açılış nitqi ilə çıxış edən Koreya Respublikasının xarici işlər naziri, İCAPP Daimi Komitəsinin həmsədri Çunq Eui-yonq İCAPP-ın fəaliyyətinə göstərdiyi fəal dəstəyə görə Yeni Azərbaycan Partiyasına xüsusi təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini Əli Əhmədov ötən il 44 günlük müharibə nəticəsində Azərbaycanın öz ərazilərini işğaldan azad etdiyini, bölgədə sülh və əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğulayıb. O, həmçinin bu ilin sonlarında Təhlükəsizlik və Əməkdaşlıq Naminə Xüsusi Konfransın keçirilməsi barədə YAP-ın təşəbbüsünün dəstəklənməsinə və İCAPP-ın iş planına salınmasına görə quruma təşəkkürünü bildirib.

Pandemiya şəraitində qurumun fəaliyyətini yüksək qiymətləndirən YAP təmsilçisi sonda İCAPP üzvlərini Bakıda keçiriləcək tədbirdə fəal iştiraka dəvət edib.

# Dunya Miyatoviş: Müharibə dayanıb, indi gələcəyə baxmalı və barışıq haqqında düşünməliyik

Üçtərəfli bəyanat imzalanandan sonra artıq gələcəyə baxmalı və barışıq haqqında düşünməliyik. Vəziyyətin stabilləşdirilməsi, gərginliyin azaldılması üçün diqqəti barışıq və etimadın yaradılmasına yönəltməliyik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA-da Avropa İnsan haqları komissarı Dunya Miyatoviç rəhbərlik etdiyi qurumun 2020-ci il üzrə fəaliyyətinə dair hesabatını təqdim etdikdən sonra deputatların suallarını cavablandırarkən söyləyib.




Komissar deyib ki, müharibə hər iki tərəf üçün həssas məsələdir: **"Müharibə dayanıb və indi gələcəyə baxmalıyıq. Komandamla bölgəyə səfər etməyə hər an hazırıq. Avropa Şurası olaraq bizim post-münaqişə ərazilərində işləmək öhdəliyimiz var. Hər iki ölkə gələcəyə baxmalı və gələcəyə doğru irəliləməlidir. Polemikalar buna yardım etməyəcək".**

Üçtərəfli bəyanatın icrasını diqqətlə izlədiyini deyən Dunya Miyatoviç bildirib ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı çərçivəsində müşahidələr davam edir. Onlar Ali Komissarlığının nümayəndələri ilə əlaqə saxlayır və həmkarları ilə birlikdə çalışırlar.

# Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır



Hər bir xalqın tarixində əvəzolunmaz rol oynayan, öz xalqı üçün xilaskarlıq missiyası həyata keçirən tarixi şəxsiyyətlər var. Azərbaycan xalqının tarixində də məhz belə bir şəxsiyyət Ümummilli Liderimiz Heydər Əliyevdir. Heydər Əliyev bütün həyatını Öz doğma xalqının inkişaf və tərəqqisinə həsr etmiş, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş şəxsiyyətdir.

Əminliklə söyləmək olar ki, müasir Azərbaycanın keçdiyi yol bilavasitə Ulu Öndərimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Hələ sovet dövründə - 1969-cu ilin iyul ayında Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev keçmiş ittifaq miqyasında geridə qalan respublikamızı qısa müddət ərzində öncül yerə çıxardı, Azərbaycan aqrar respublikadan, sənaye-aqrar respublikaya çevrildi. Ulu Öndərimizin həmin dövrdə misilsiz xidmətləri Azərbaycan xalqının rifah halını da əhəmiyyətli dərəcədə yüksəltdi.

Mən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ərəfəsində yazdığım bu məqaləni Onun müstəqillik dövrümüzün ilk illərində, daha doğrusu, Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda göstərdiyi xilaskarlıq missiyasına həsr etmək istəyirəm. Məlumdur ki, 1980-ci illərin sonunda keçmiş SSRİ-nin bir sıra respublikalarında olduğu kimi, Azərbaycanda da ictimai-siyasi vəziyyət gərginləşmişdi. Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları, soydaşlarımızın doğma yurdlarından deportasiyası və başqa problemlər xalqın səbrini daşırırdı. Problem onda idi ki, həm SSRİ rəhbərliyi, həm də yerli hakimiyyət belə bir vəziyyətin qarşısını almaq niyyətində deyildilər.

Bildiyiniz kimi, 1991-ci ildə SSRİ rəsmən dağıldı, respublikalar öz müstəqilliyini elan etdilər. Amma buna baxmayaraq, həmin problemlər daha da çətinləşirdi. 1990-cı illərin əvvəllərində respublikamızın vəziyyəti çox ağır idi və prosesləri analiz edə bilən insanlar bunu dərk edirdilər. Azərbaycan günbəgün sarsılmaqda idi, ictimai-siyasi proseslər idarəolunmaz forma alırdı. Hakimiyyətdə olan insanlar isə sanki xalqın maraqlarını unutmuşdular, onların nəyə xidmət etdiklərini anlamaq mümkün deyildi. Xalqın müqəddəratı, istəyi, Vətənimizin təhlükəsizliyi onları maraqlandırmırdı. Həmin dövrdə xalq ağır vəziyyətə düşmüşdü və ən başlıcası, mənəvi cəhətdən sarsılmışdı.

Beləliklə, hakimiyyətə qarşı ümumxalq narazılığı yaranmışdı və insanlar mitinqlər, etiraz aksiyaları keçirməklə hakimiyyətə etirazlarını bildirirdilər. Ümumxalq narazılığı fonunda 1992-ci ildə respublikada hakimiyyətə gələn AXC-“Müsavat” cütlüyü dağıdıcı proseslərin qarşısını nəinki almadı, əksinə, hərc-mərclik daha da artdı, Ermənistanın hərbi təcavüzü daha sürətləndi. Çox qısa zamanda xalq gördü ki, AXC-“Müsavat” hakimiyyəti də idarəçiliyi bacarmır. Bu hakimiyyətin yarıtmaz siyasəti nəticəsində ölkəmiz uçuruma doğru sürüklənirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı.

Azərbaycanda ümumi vəziyyətin nə qədər təhlükəli olduğunu cəmiyyətin sağlam qüvvələri, ziyalılar yaxşı dərk edirdilər. Bu insanlar anlayırdılar ki, Azərbaycanı belə bir ağır vəziyyətdən xalqımızın ləyaqətli oğlu Heydər Əliyev kimi böyük dövlət xadimi, bütün dünyada tanınmış bir şəxsiyyət xilas edə bilər. Amma ozamankı hakimiyyət Ümummilli Lider Heydər Əliyevin təcrübəsindən nəinki bəhrələnmək istəmirdi, əksinə, Ona qarşı əsassız mübarizə aparırdılar.

Belə olan təqdirdə, cəmiyyətin öndə gedən bir qrup ziyalısı Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Qürur duyuram ki, həmin müraciətdə mənim də imzam var. “91-lər hərəkatı” kimi tariximizə düşən bu hadisə çox önəmlidir. Çünki bu ziyalılar görürdülər ki, ölkədə separatçılıq baş alıb gedir, qanunsuz silahlı dəstələr insanlar üçün böyük təhlükəyə çevrilib, əhalinin həyat səviyyəsi də sürətlə aşağı düşürdü. Yəni, sözün əsl mənasında, vətən əldən gedirdi.

Belə bir şəraitdə 91 ziyalı Ulu Öndər Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət etdi. Partiyanın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib vətəni xilas etmək idi. Ulu Öndər Heydər Əliyev “91-lər”in müraciətinə müsbət cavab verdi və Yeni Azərbaycan Partiyasının yaradılması istiqamətində hazırlıq işləri başladı. Hakimiyyət isə Heydər Əliyevin rəhbərliyi ilə partiyanın yaranmasının qarşısını almağa çalışırdı. Onlar başa düşürdülər ki, xalqın Heydər Əliyevə böyük sevgisi var və belə bir partiya yaransa, xalqın ən güclü siyasi təşkilatına çevriləcək. Ona görə də partiya işi ilə məşğul olan şəxslərə qarşı hədə-qorxu gəlirdilər, fiziki təzyiqlərə məruz qoyurdular. Amma bütün bunlar bu insanların iradəsini sındıra bilmədi. 1992-ci ilin oktyabr ayında isə Naxçıvanda Ulu Öndər Heydər Əliyevi hakimiyyətdən devirməyə cəhd göstərdilər. Amma Naxçıvan əhalisi Heydər Əliyevi dəstəklədi və çevriliş cəhdi edənlərə tutarlı cavab verdi.

Beləliklə, bütün çətinliklərə rəğmən 21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi, partiyanın strukturu, rəhbər heyəti formalaşdı. Bundan sonra isə respublikada təşkilatlanma prosesi başlandı. Təbii ki, ozamankı hakimiyyət bunun da qarşısını almağa çalışırdı. Amma insanlar Heydər Əliyevin yaratdığı partiyaya böyük həvəslə qoşulurdular.

Əlbəttə, o dövrdə respublikada vəziyyət o qədər ağır idi ki, həqiqətən də, dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Bir tərəfdən Ermənistanın hərbi təcavüzü davam edirdi, digər tərəfdən, ölkə daxilində iqtisadi, ictimai-siyasi böhran dərinləşirdi. 1993-cü ilin iyun ayında baş verən Gəncə hadisələri isə vəziyyəti daha da gərginləşdirdi. Azərbaycanda vətəndaş müharibəsi başladı.

Belə bir vəziyyətdə xalqımızda yekdil bir fikir formalaşdı ki, Azərbaycanı bu təhlükələrdən yalnız Ulu Öndər Heydər Əliyev xilas edə bilər. Ona görə də cəmiyyətimizin ən müxtəlif təbəqələri Heydər Əliyevə müraciətlər edirdilər. İş o yerə çatdı ki, AXC-“Müsavat” hakimiyyəti də bu reallığı dərk etməyə başladı. Hakimiyyətdəkilər özlərinin həyatının da təhlükədə olduğunu gördülər, hansısa bir üsyançı ilə bacara bilmədilər. Ona görə də iqtidarda olanlar da Ulu Öndər Heydər Əliyevi hakimiyyətə dəvət etməyə məcbur oldular.

Beləliklə, Ulu Öndərimiz xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Bakıya gəldi və 15 iyunda Azərbaycan parlamentinin Sədri seçildi. Bu hadisə tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan xalqı öz gələcəyini Heydər Əliyevlə bağlı görürdü. Onun siyasi hakimiyyətə qayıdışı ictimai-siyasi mühiti tamamilə dəyişdirdi və insanlarda gələcəyə ümidi artırdı.

Qısa müddətdə Ulu Öndərimiz respublikada ictimai-siyasi sabitliyi bərpa etdi, separatçılığın qarşısı alındı, qanunsuz silahlı dəstələr ləğv olundu. Təbii ki, Azərbaycanın inkişafını istəməyən xarici qüvvələr və onların yerli əlaltıları hər cür təxribata əl atırdılar, dövlət çevrilişinə cəhd göstərirdilər. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri buna sübutdur. Amma hər iki hadisə zamanı xalq öz Liderini dəstəklədi və Onunla həmrəy olduğunu bəyan etdi. Fakt kimi onu xatırladım ki, 1994-cü ilin oktyabr hadisələri zamanı Ulu Öndər Heydər Əliyevin bir çağırışı ilə yüz minlərlə insanın Prezident Sarayının qarşısına toplaşması bütün dünyaya bir mesaj oldu. Yəni xalqla Heydər Əliyev birliyinin sarsılmaz olduğu bütün dünyaya nümayiş olundu.

Qeyd etmək lazımdır ki, 2003-cü ildən etibarən Azərbaycanda Heydər Əliyev siyasəti uğurla davam edir. 2003-cü ildə prezident seçkiləri kampaniyası dövründə Ulu Öndərimiz Azərbaycan xalqına müraciət etdi və xalqı cənab İlham Əliyevi dəstəkləməyə səslədi. Xalq bu müraciətə müsbət cavab verdi və cənab İlham Əliyevi özünün Lideri seçdi. Prezident İlham Əliyev Heydər Əliyev yoluna sadiqliyini göstərərək Azərbaycanı uğurla inkişaf etdirir.

Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Həmin illərdə insanlar ən kiçik sosial ehtiyaclarını ödəyə bilmirdilər. Bölgələrdə işıq, qaz, yol yox idi. Ona görə də əhali böyük şəhərlərə üz tuturdu. Amma hazırda vəziyyət müqayisəolunmaz səviyyəyə gəlib çatıb. Bu gün hər bir sahədə uğurlar qazanılıb. Bu gün Azərbaycan güclü dövlətdir, dünyada nüfuzlu ölkə kimi tanınır, regionun isə lideridir. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman ordumuz tərəfindən torpaqlarımızın erməni işğalından azad olunması isə Azərbaycanın qarşısında yeni perspektivlər açır. Bu regionda Azərbaycanın razılığı olmadan hər hansı bir layihəni həyata keçirmək mümkün deyil. Eləcə də Azərbaycanın regionları uğurla inkişaf edir. Hər yer abaddır, inkişaf edir. Təkcə şəhərlərimiz yox, kəndlərimiz də inkişaf edir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl olaraq tədbirlər görülür, yeni iş yerləri yaradılır, yollar, körpülər, məktəblər, tibb ocaqları tikilib istifadəyə verilir. Bütün bunlar isə Heydər Əliyev siyasətinin bəhrəsidir.

**Sudeif İMAMVERDİYEV**

**YAP Veteranlar Şurasının üzvü, Əməkdar elm xadimi**

# Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələrinin onlayn təqdimatı olub





Aprelin 21-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələrinin onlayn təqdimat mərasimi keçirilib. Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş tədbirdə Təhsil Nazirliyindən, Milli Məclisdən, Azərbaycan Memarlar İttifaqından, ali təhsil müəssisələrindən qonaqlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, universitetin rektoru, professor Gülçöhrə Məmmədova qonaqlara layihə barədə ətraflı məlumat verib. Rektor qeyd edib ki, Memarlıq fakültəsində təhsil alan tələbələrin təşəbbüsü ilə ərsəyə gələn Şuşa şəhərinin şəhərsalma inkişafı və tarixi memarlıq irsinin bərpası layihəsi üzrə işlər bir il əvvəl başlayıb. **“Tələbələrimiz və müəllimlərimiz layihə üzərində işə başlayanda Şuşa, eləcə də digər rayonlar hələ işğal altında idi. Amma biz inanırdıq ki, tezliklə o torpaqlar öz sahiblərinə qayıdacaq, biz bu layihələri orada gerçəkləşdirəcəyik. Bu gün çox sevinirik ki, arzumuza çatmışıq”.**

G.Məmmədova layihənin hazırlanmasında əsas məqsədin Azərbaycanın tarixi şəhəri olan Şuşanın nümunəsində tarixi şəhərlərin inkişafı və memarlıq irsinin qorunması, abidələrinin bərpasından ibarət olduğunu vurğulayıb. Eyni zamanda, o, tezliklə Şuşa şəhərində tələbələrin təqdim etdiyi şəhərsalma strukturuna dair yeni inkişaf layihələri ilə əlverişli, müasir tələblərə uyğun yaşayışın bərpa olunacağına inamını ifadə edib.

Rektor diqqətə çatdırıb ki, təxminən bir il çəkən bu layihənin hazırlanması üçün tələbələr Şuşanın abidələri, infrastrukturu haqqında tarixi məlumat toplayıblar, arxivlərdə işləyiblər, mövcud arxiv sənədləri ilə tanış olublar. İki istiqamətdə hazırlanan layihələrin şəhərsalma strukturunun inkişafı üzərində işləyən tələbələrə AzMİU-nun dosenti, Əməkdar memar Yeganə Hacıyeva, abidələrin bərpası istiqaməti üzrə işləyən tələbələrə isə AzMİU-nun professoru, memarlıq doktoru Səbinə Hacıyeva rəhbərlik edib.

Sonra layihə mərasim iştirakçılarına təqdim olunub. Layihədə şəhərsalma strukturunun inkişafı istiqaməti üzrə tələbələrə rəhbərlik edən Y.Hacıyeva Şuşa şəhərinin 2020-2040-cı illər üzrə baş plan layihəsi barədə danışıb, tələbələrin iştirakı ilə görülən işlər izləyicilərə təqdim olunub. Bildirilib ki, birinci mərhələdə əsasən ictimai, yaşayış və qeyri-yaşayış zonaları, sənaye, istirahət və yaşıllıq əraziləri üzrə işlər görülüb. Sonrakı mərhələdə yeni yaşayış zonaları təklif olunub, şəhərin mövcud ərazisinin 2040-cı ilə qədər yeni sərhədləri ilə bərabər təyini, Şuşa üçün ekoturizm marşrutunun, ümumi yaşıllıq sahəsinin rekreasiya zonasının yenilənməsi, yeni tikililər üçün ərazilərin ayrılması, küçələrin şəhər ətrafı kateqoriyalarının bölünməsi, ayrılması, piyada turist marşrutlarının təyini və s. həyata keçirilib.

Memarlıq irsinin bərpası istiqaməti üzrə məlumat verən Səbinə Hacıyeva qeyd edib ki, ümumilikdə Şuşada 165 tarixi abidə var, amma tələbələr onların bir qismi üzərində iş aparıblar. **“Biz layihəyə başlayanda Şuşa şəhəri işğal altında idi, biz ora gedə bilmirdik. Tələbələr yalnız arxivlərdən əldə etdikləri məlumatlar, eskizlər əsasında işləyiblər. Şuşanın ayrı-ayrı memarlıq abidələrinin arxivlərdən eskizləri, cizgiləri, fotoşəkilləri və s. kimi məlumatlar götürülərək onların tarixi, memarlıq-dekorativ xüsusiyyətləri tədqiq edilib, internet resursları vasitəsilə indiki vəziyyəti araşdırılıb və eskiz-bərpa layihələri işlənib”.**

Sonra tələbələr Aşağı və Yuxarı Gövhər Ağa məscidi, Xan qızı Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün, Həsən bəy Vəzirovun və başqalarının ev-muzeyləri, hamam, karvansara və bulaqların bərpa-eskiz layihələrini təqdim ediblər. Bərpa layihələri təqdim edilən abidələrin 3 D görünüşü tələbələr tərəfindən işlənib.

Təqdimatın sonunda layihənin nəticəsi kimi tələbələr müasir kompüter proqramlarından istifadə edərək Şuşaya ilk gediş marşrutunu təqdim ediblər.

Mərasimdə təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin deputatları - Hicran Hüseynova, Aydın Mirzəzadə və Hikmət Babaoğlu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova tələbələrin təşəbbüsünü alqışlayaraq bu layihədə əməyi keçən müəllimlərə təşəkkür ediblər. Onlar görülən işləri yüksək qiymətləndiriblər, işğaldan azad olunmuş şəhər və kəndlərimizin yenidən qurulması, bərpası və inkişafı prosesində AzMİU-nun professor-müəllim, tələbə potensialından istifadənin vacibliyini vurğulayıblar.

# Azad olmayan xalq qalib ola bilməz, yaxud “Sərhədsiz reportyorlar”la Cəmil Həsənlini narahat edən nədir...






Bu günlərdə “Sərhədsiz reportyorlar” təşkilatı dünyada söz azadlığının vəziyyəti ilə bağlı növbəti hesabatını paylaşıb. Bu hesabat da həmişə olduğu kimi, subyektiv kriteriyalar əsasında hazırlandığı üçün Azərbaycan yenə qara rəngdə göstərilib.

Əslində, “Sərhədsiz reportyorlar”ın ölkəmizə münasibəti qərəzli və qeyri-obyektiv olduğu üçün onun hesabatı hər hansı münasibət bildirməyə layiq deyil. Ancaq məsələ ondadır ki, həmin təşkilat hesabatının məhz Azərbaycanda ictimai müzakirə predmetinə çevrilməsində maraqlıdır. Ona görə də hesabata ictimai marağın olmadığını görən kimi onu qeyri-ənənəvi yollarla yenidən diqqətə təqdim etməyə çalışır. Axı məqsəd Azərbaycana münasibətdə söz azadlığının obyektiv qiymətləndirilməsi deyil, məhz bu vasitə ilə ölkəmizdə ictimai rəyi manipulyasiya etmək cəhdləridir. Çünki “Sərhədsiz reportyorlar”ın ideyavericiləri və hamiləri ölkəmizin böyük qələbəsindən, tarixi zəfərimizdən və milli birliyimizin rəhni olan ictimai həmrəyliyimizdən olduqca narahatdırlar. Nəyin bahasına olursa-olsun, ölkəmizdə süni və qısır gündəm yaratmaqla ümummilli həmrəyliyimizə xələl gətirmək istəyirlər. Bunun üçün də “ənənəvi” vasitələrdən və xidmətlərdən istifadə edirlər. Məsələn, dərhal Cəmil Həsənlini bu prosesə cəlb etməklə, “Sərhədsiz reportyorlar”ın qərəzli hesabatını bir də onun vasitəsilə informasiya məkanımıza daxil etməklə ictimai diqqəti bu hesabata yönəltməyə çalışırlar. Ancaq Cəmil Həsənlinin özünün də qeyd etdiyi kimi, doğurdan da, bu hesabatın, yaxud “azadlığın” Azərbaycana heç bir aidiyyəti yoxdur. Ona görə ki, hesabatda əksini tapmış “söz azadlığı” istismar üzərində qurulub. Azərbaycanda isə konstitusiyamızda da təsbit olunmuş söz və mətbuat azadlığı real olaraq mövcuddur.

Bizə imperialist mərkəzlərin istismarçı “azadlığı” heç vaxt lazım olmayıb və olmayacaq da. Əgər elə olsaydı, Azərbaycan manipulyativ və istismarçı azadlıqlar, uydurma insan hüquqları və demokratiya alətlərinə boyun əysəydi, öz müstəqilliyini itirər, qlobal imperializmin savaş poliqonuna çevrilər və əsla torpaqlarını işğaldan azad edə bilməzdi. Qlobal imperializmin istəyi də elə bu idi. 44 günlük müharibə dövründə biz bir daha bunun əyani şahidi olduq. Özünü dünyaya “demokratiya etalonu” kimi təqdim edən bəzi dövlətlərin nə qədər hüquqdan, haqdan, demokratik dəyərlərdən uzaq adi bir islamofob, işğalçı Ermənistanı dəstəkləyən, universal dəyərlərdən uzaq saxtakar olduğunu gördük.

Ona görə də Azərbaycan xalqı bir daha öz milli davasında yalnız özünə və liderinə arxalanmalı olduğunu dərk etdi, tarixi zəfər qazandı. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin adının xalqımız tərəfindən yüksək ehtiram və hörmətlə çəkilməsi və bunun eyni şəkildə milli mətbuatımızda öz əksini tapması isə yalnız məğlub edilmiş erməniləri və onların tərəfdarlarını narahat edir. Azad olmayan xalq qalib ola bilməz. Biz qalib olduq! Bunu həm də milli birliyimizə və azadlığımıza borcluyuq!

**Hikmət BABAOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

# Xətai Ələsgər: Aşıq Ələsgər irsinin araşdırılması və tanıdılması ilə bağlı görülən bütün işlərə dəstək olmağa çalışacağıq



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 fevral 2021-ci il tarixdə "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, 2021-ci ildə Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi Aşıqlar Birliyinin təklifləri nəzərə alınmaqla, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Təhsil Nazirliyinə tapşırılıb.

Qeyd edək ki, Aşıq Ələsgərin 200 illiyinin qeyd edilməsi sənətkarın yaradıcılığı ilə məşğul olan tədqiqatçıların, ələsgərşünasların qarşısında yeni imkanlar açır.

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən Aşıq Ələsgərin nəticəsi, "Dədə Ələsgər Ocağı" İctimai Birliyi Təşkilat Komitəsinin sədri Xətai İslam oğlu Ələsgər sözügedən Sərəncamın mühüm əhəmiyyətə malik olduğunu deyib: **"Cənab Prezidentin imzaladığı bu Sərəncam ələsgərsevərlərin, aşıq sənətinin vurğunu olan insanların ürəyincə olub. Bu addım aşıq sənətinin gələcək inkişafı üçün də mühüm töhfədir. Məhz buna görə Prezident İlham Əliyevə bir daha minnətdarlığımızı çatdırırıq".**

*"Aşıq Ələsgərin yubileyi ilə bağlı bütün tədbirlər onun həyat və yaradıcılığına yenidən işıq salacaq, zəngin irsinin gələcək nəsillərə ötürülməsinə imkan verəcək"*

Yubiley ili çərçivəsində artıq bir sıra tədbirlərin keçirildiyini xatırladan Xətai Ələsgər deyib ki, Aşıq Ələsgərin 200 illiyi ilə bağlı mühüm işlərə start verilib: **"Martın 30-da Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş "Göyçədən Türk dünyasına" adlı virtual konfrans keçirilib. Mədəniyyət naziri Anar Kərimov, konfransda iştirak edən müxtəlif qurumların rəhbərləri, millət vəkilləri və alimlər sənətkarın Azərbaycan mədəniyyətindəki yeri və mövqeyindən bəhs ediblər. Fikrimcə, Aşıq Ələsgərin yubileyi ilə bağlı bütün tədbirlər onun həyat və yaradıcılığına yenidən işıq salacaq, zəngin irsinin gələcək nəsillərə ötürülməsinə imkan verəcək. Ümumiyyətlə, Aşıq Ələsgər yaradıcılığında araşdırılmamış çox dərin qatlar mövcuddur. Bir məqamı qeyd edim ki, Aşıq Ələsgər 16 şeir növünə müraciət edən nadir söz ustadı olub. Onlardan 4-nün yaradıcısı onun özü olub. Bunlara dodaqdəyməz təcnis, dodaqdəyməz cığalı təcnis, dodaqdəyməz divani və dildönməz aiddir. Bu baxımdan, Dədə Ələsgər yaradıcılığına dərindən bələd olduqca onun dilimizin, milli dəyərlərimizin təbliğində xüsusi rol oynadığını görə bilərik".**

X.Ələsgər onu da əlavə edib ki, "Dədə Ələsgər Ocağı" İctimai Birliyi görkəmli sənətkarın yubileyi ilə bağlı bütün tədbirlərin təşkilində və keçirilməsində iştirakı planlaşdırır: **"Əlamətdar yubileyin qeyd edildiyi 2021-ci ildə Aşıq Ələsgər irsinin araşdırılması və tanıdılması ilə bağlı görülən bütün işlərə dəstək olmağa çalışacağıq. Bu zaman əsas məqsəd təkcə Aşıq Ələsgər yaradıcılığının təbliği deyil, onun təmsilçisi olduğu Göyçə aşıq məktəbinin görkəmli nümayəndələrinin də xalqımıza yaxından tanıdılması olacaq".**

Qaşqay ZİYƏDDİNOĞLU

# "Qorunma tədbirlərinin davam etdirilməsi ilə yanaşı, vaksinasiyada aktiv iştirak da vacibdir"



Bu gün bəşəriyyəti cənginə alan koronavirus pandemiyası çox təhlükəli bəlaya çevrilib. Dövlətimiz pandemiyaya qarşı mübarizədə olduqca önəmli tədbirlər həyata keçirir. Əhalinin peyvənd olunması prosesi də kifayət qədər effektiv təşkil olunub. Yeri gəlmişkən, TƏBİB bu məsələdə əsas hədəfin ölkəmizdə əhalinin 80 faizinin vaksinasiya edilməsindən ibarət olduğunu bəyan edib.

Öz növbəsində TƏBİB-in İdarə Heyəti yanında Tibbi-elmi Komitənin sədri, professor Akif Qurbanov qəzetimizə açıqlamasında deyib ki, görülən tədbirlər yaxın zamanlarda yoluxma saylarının kəskin artımının qarşısını ala bilər. Bu, rahatlıq versə də, arxayınlaşmaq olmaz, qorunma tədbirlərinin davam etdirilməsi ilə yanaşı, vaksinasiyada aktiv iştirak da vacibdir. Vaksinasiya yüksək templə aparılır və peyvəndlərin gətirilməsi davam edir.

*"Vaksinin əhəmiyyəti odur ki, peyvəndlənən vətəndaşlar yoluxsalar, xəstəliyi yüngül keçirəcəklər"*

Onun sözlərinə görə, artıq 40 yaşdan yuxarı vətəndaşların peyvəndlənməsi aparılır ki, bu da bizi çox böyük fəsadlardan qoruyacaq: **"Vaksin COVID-19-dan xilas olmaq üçün yeganə vasitədir. Vaksinin əhəmiyyəti odur ki, peyvəndlənən vətəndaşlar yoluxsalar, xəstəliyi yüngül keçirəcəklər, ağırlaşmalar, demək olar ki, olmayacaq. Əksəriyyətdə isə ümumiyyətlə yoluxma olmayacaq. Hazırda istifadə edilən vaksinin ikinci dozasının vurulmasından iki həftə keçdikdən sonra peyvənd tam qorumağa başlayır. Vaksinin birinci dozasından sonra arxayınlaşıb qorunma tədbirlərinə əməl etməmək düzgün deyil. Ona görə də pandemiya dövründə istər peyvənd olunsun, istərsə də yox, hər kəsin qorunması zəruridir".**

Həkim-pulmonoloq Ayşə Əliyeva isə bildirib ki, yeni nov koronavirus (COVID-19) infeksiyasından güclü immunitet və gigiyenik qaydalara düzgün əməl etməklə qorunmaq mümkündür. Onun sözlərinə görə, virusla mübarizədə istifadə olunan tibbi maska və əlcəklər ən vacib qoruyucu vasitələrdən biridir: **"Lakin onların qoruyucu gücü fərqli olduğundan seçim edərkən yanılmamaq lazımdır. Viruslar tibbi maska və əlcəklərdə toplandığı üçün onların təkrar istifadə edilməsi tövsiyə olunmur. Bəzən sterilizasiya ediləndən sonra qoruyucu maskalar qurudub təkrar istifadə olunsa da, mütəxəssislər bunu düzgün saymırlar. Əlcəklərin də təkrar istifadəsi yolverilməzdir. Onları soyunarkən tərs üzünə çevirərək çıxarmaq və atmaq lazımdır".**

*"Müqəddəs Ramazan ayında insanlar daha da diqqətli olmalı və kollektiv toplaşmamalıdırlar"*

*"Viruslar tibbi maska və əlcəklərdə toplandığı üçün onların təkrar istifadə edilməsi tövsiyə olunmur"*

Mütəxəssis, xüsusilə müqəddəs Ramazan ayında insanları daha da diqqətli olmağa və kollektiv toplaşmamağa səsləyib: **"Virusun geniş yayılmaması üçün, o cümlədən xalqımızın sağlamlığı naminə kütləvi toplaşmaq olmaz. Hamı bir nəfər kimi xəstəlikdən qorunmaq üçün əlindən gələni etməlidir. Düşünürəm ki, hər bir kəs özünü təcrid etməyi bacarsa, yoluxma halı tezliklə aradan qalxar, hamımız əvvəlki xoşbəxt, firavan həyatımıza qayıdarıq. Gəlin, koronavirus infeksiyasına qarşı mübarizədə birləşək, özümüzü, xalqımızı və dövlətimizi qoruyaq".**

MÜŞFİQƏ

# Narkotik asılılığı problemi: nəyi bilməli, necə davranmalı?

## Psixoloq Zərinə Əliyeva: Unutmamalıyıq ki, güclü iradəyə malik olan və yetərli dəstək alan insanlar bu bəlanın pəncəsindən gec də olsa, yaxa qurtara bilirlər

Narkomaniya "cəmiyyətin bəlası" adlandırılan ciddi sosial problemdir. Təəssüf ki, bu bəlanın qurbanları bütün dünyada hər keçən gün artır. Mütəxəssislərin vurğuladıqları kimi, narkomaniya birbaşa intihar halı olmasa da, onun insanları tədricən məhv etdiyi, ölümə sürüklədiyi danılmazdır.

Psixoloq Zərinə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, ümumiyyətlə, gənclər və uşaqlar arasında asılılıqlara meyillilik çoxdur: **"Asılılıq deyəndə internet, narkotik, yaxud alkoqol içki asılılıqlarını və digərlərini nəzərdə tuturam. Ümumiyyətlə, deyə bilərəm ki, ailədaxili sevgi, valideyn-övlad münasibətləri güclü olan ailələrdə böyüyən uşaqlar adətən belə asılılıqlara meyil etmirlər. Asılılıqların yaranması bir çox hallarda ailədaxili bağlarda olan boşluqlardan irəli gəlir".**



Zərinə Əliyeva onu da bildirib ki, narkotikin aludəçisi olanlarla aparılan sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər onları narkotikdən istifadəyə istiqamətləndirib.

**"Son dövrlər narkomaniyadan istifadənin yaş həddi olduqca aşağı düşüb. Buna görə də məktəblərdə psixoloqlar, eyni zamanda, sosioloqlar bu barədə daim maarifləndirmə işləri aparmalıdırlar. Narkotik maddələrin insanların sağlamlığına uzun və qısa müddətdə gətirəcəyi fəsadlar mütləq maarifləndirmə yolu ilə şagirdlərə çatdırılmalıdır. Bu işdə valideynlərin üzərinə də böyük məsuliyyət düşür. Dediyim kimi, övladlarımızın zərərli vərdişlərdən uzaq olmasını istəyiriksə, ilk öncə onlarda möhkəm, sağlam, güvənli sevgi dolu bağlar yaratmalıyıq və onlarla bacardığımız qədər maraqlanmalı, eyni zamanda, müəyyən azadlıq verməliyik ki, şəxsiyyət kimi formalaşsınlar. Şəxsiyyət kimi formalaşmayan bir gənc müəyyən yaşdan sonra çox asanlıqla təsir altına düşüb yanlış formalaşa bilər"**, - deyə Z.Əliyeva əlavə edib.

Mütəxəssis deyir ki, bu bəladan əziyyət çəkənləri yenidən cəmiyyətə qazandırmaq üçün onların reabilitasiyasına çalışmaq və narkotik asılılığını bir xəstəlik kimi qəbul etmək lazımdır: **"Unutmamalıyıq ki, güclü iradəyə malik olan və yetərli dəstək alan insanlar bu bəlanın pəncəsindən gec də olsa, yaxa qurtara bilirlər".**

Aynur PƏNAHQIZI

# Ermənistanda böhran: hakimiyyət ilə müxalifət arasında qarşıdurma güclənir



Məlum olduğu kimi, ciddi sosial-iqtisadi və siyasi böhran dövrünü yaşayan məğlub Ermənistanda 20 iyunda növbədənkənar parlament seçkiləri keçiriləcək. Parlamentdə təmsil olunan və seçkilərlə bağlı hakim komanda ilə razılığa gələn partiyalar artıq seçkiyə hazırlıq görürlər. Parlamentdən kənardakı siyasi qüvvələrə gəlincə, bəzi partiyalar seçkidə iştirakla bağlı qərar versələr belə, əksər siyasi partiyalar indiki hökumətin ədalətli seçki keçirəcəyinə inanmır. Bütövlükdə isə, siyasi qüvvələr bir-birilərini ittiham etməklə məşğuldurlar.

Mövcud hakimiyyətin seçkiqabağı durumuna nəzər yetirdikdə vəziyyət o qədər də ürəkaçan deyil. Belə ki, rəqiblərinin seçki qanunvericiliyini pozmaqda günahlandırdığı Paşinyan artıq təşviqat kampaniyasına başlasa da, regionlara səfərləri uğursuz olub.

*Siyasi qüvvələr bir-birilərini ittiham etməklə məşğuldurlar*

Yeri gəlmişkən, "Past" qəzetinin yazdığına görə, regional səfərləri zamanı Paşinyanın böyük icmalarda görüşlərdən imtina etməsi diqqət çəkir: **"Əldə etdiyimiz məlumata görə, səfərləri təşkil edilməzdən əvvəl çox sayda insanın iştirakını təmin etmək üçün ciddi iş aparılır. Lakin Paşinyan son regional səfərindən olduqca əsəbi qayıdıb. Belə ki, baş nazir səfər təşkilatçılarını və bəzi icma rəhbərlərini danlayıb".**

Qeyd edək ki, Paşinyanın regional görüşlərinə çox sayda uşağın cəlb olunması da hakimiyyət üçün problem yaradıb. "Aysor.am" yazır ki, "Alternativ layihələr" qrupunun rəhbəri Elinar Vardanyanın sözlərinə görə, uşaqlardan siyasi məqsədlərə çatmaq üçün vasitə kimi istifadə olunması qəbuledilməzdir. E.Vardanyan deyib ki, hakimiyyət inzibati resurslardan sui-istifadə edərək seçkiqabağı kampaniyaya başlayıb: **"Görüşlərə yerli vəzifəli şəxslər yetkinlik yaşına çatmayanları cəlb ediblər ki, bu da BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və digər beynəlxalq sənədlərə görə uşaq hüquqlarının pozulmasıdır".**

*Ermənistanda müşahidə olunan ziddiyyətli mənzərə seçki prosesinin daha gərgin keçəcəyinə dəlalət edir*




Ekspertlərin qənaətinə əsasən, Ermənistanda müşahidə olunan siyasi qarşıdurma və ziddiyyətli mənzərə seçki prosesinin daha gərgin keçəcəyinə dəlalət edir.

Qaşqay ZİYƏDDİNOĞLU

# Antimilli ünsürlər milli həmrəyliyə zərbə vurmaq üçün canfəşanlıq edirlər



Azərbaycan 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanmaqla tarix yazdı. Bu müharibə bütün dünyanın diqqət mərkəzində oldu. Təsadüfi deyil ki, şanlı ordumuzun, qəhrəman əsgərlərimizin döyüş taktikası bir sıra ölkələrdə öyrənilir, onların hərbi təyinatlı qurumlarında tədqiq olunur.

Əlbəttə ki, tarix yazan əsgər və zabitlərimizlə dövlətimiz və xalqımız qürur duyur. Eyni zamanda, canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi daim uca tutulur. Bildiyimiz kimi, Azərbaycanda şəhid ailələrinə və qazilərə dövlət səviyyəsində yüksək qayğı göstərilir. Bütövlükdə, cəmiyyətimiz bu kateqoriyadan olan insanlara diqqət göstərilməsini özünün mənəvi borcu hesab edir. Çünki torpaqlarımız məhz bu qəhrəmanlarımızın sayəsində düşmən işğalından azad olunub.

*Radikallar qarayaxma kampaniyası aparır, ictimai rəyi yanıltmağa çalışırlar*

Amma bütün bunların fonunda ölkəmizdəki radikal müxalifətin tutduğu mövqe qəbulolunmazdır. Çünki radikallar, "beşinci kolon"un təmsilçiləri bu məsələdə də qarayaxma kampaniyası aparır, ictimai rəyi yanıltmağa çalışırlar. Bunu AXCP funksioneri Nurəddin Məmmədlinin "düşüncə"lərindən də görmək olar. Belə ki, o, özünün "facebook" səhifəsində paylaşdığı fikirlərlə iddia edir ki, qələbənin təminatçısı olan əsgər və zabitlərimiz guya dövlət tərəfindən layiq olduqları qiyməti almadılar, əksinə böyük haqsızlıqlarla üzləşməkdədirlər. Amma onun iddialarının heç bir əsası yoxdur.

Məlumdur ki, dövlətimiz tərəfindən bu kateqoriyadan olan insanların problemlərinin həll edilməsi daim diqqət mərkəzində saxlanılır. Cəmiyyətimizə şəhid ailələrinə və qazilərimizə göstərilən diqqət, onların problemlərinin həll olunması yaxşı məlumdur. Yəni bu məsələdə dövlətin siyasi iradəsi ortadadır.

Eyni zamanda, bu gün "YAŞAT" Fondu vasitəsilə cəmiyyət üzvləri, qeyri-hökumət təşkilatları, müxtəlif qurumlar, sadə vətəndaşlar şəhid ailələrinə və qazilərə dəstək göstərirlər.

Nurəddin Məmmədli kimilərinin isə məqsədi bu yalanlarla ölkəmizdəki birliyə və həmrəyliyə zərbə vurmaqdır. Amma dağıdıcı düşərgə təmsilçilərinin bu niyyəti heç vaxt baş tutmayacaq. Əksinə, tutduqları yanlış yolun nəticəsidir ki, cəmiyyətdə heç bir sosial dayaqları yoxdur. Yalnız vaxtaşırı sosial şəbəkələrdə əsassız iddialar paylaşmaqla məşğuldurlar.

*Dağıdıcı düşərgə təmsilçilərinin bu niyyəti heç vaxt baş tutmayacaq*

Nardar BAYRAMLI

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU